components. As for the general theory of translation, the problem of the generalization of such complex facts, the overlap of these grammatical similarities when comparing several languages, is of some importance. In this regard, it is important to take into account grammatical features when translating from one specific language to another. In this regard, it is important to take into account grammatical features when translating from one specific language to another.

The grammatical category acts as a mediator between language and thinking. Categories of thinking and language are different. This difference allows us to explore their essence. Thinking can freely define its categories.

Language categories belong to the system.

***Rəyçi: prof. Seyidəliyev Nəriman Fərman oğlu***
***Daxil olma 17 sentyabr 2021-ci il***

**UOT:82.**

## ƏLİ NƏZMİ YARADICILIĞINDA QADIN AZADLIĞI MÖVZUSU

***Fərəcova Aygün Əli qızı***
***Gəncə Dövlət Universiteti***
aygunfaracova@gmail.com

**Xülasə:** *XX əsr Azərbaycan realist ədəbiyyatında qadın azadlığı məsələləri dövrün tələblərinə müvafiq daha qabarıq prinsipial bir şəkildə qarşıya qoyulmuş, qadın köləliyi və çadra əleyhinə onlarla qiymətli əsər meydana çıxmışdır. Dövrün qabaqcıl şair və mütəfəkkirləri xüsusi ustalıqla qadınların azadlığı mövzusunda bir sıra əsərlər yazaraq bu məsələni daha qabarıq nəzərə çatdırmışlar.*

*Bu mütəfəkkirlər arasında Əli Nəzmi ön sıralarda dayanır. O, Azərbaycan qadınlarının ağır, işgəncə ilə dolu həyatından təsirli əsərlər yazmışdır. Qadın problemi, ailədə ana tərbiyəsi, bunun cəmiyyətə təsiri məsələsi şairin bu dövr yaradıcılığından bir xətt kimi keçir, müsbət, mütərəqqi planda həll olunur. Şair bir tərəfdən qadına ifrat münasibət bəsləyən köhnəpərəstləri ifşa edirsə, digər tərəfdən də caduya, fala, tasa bel bağlayan, həyatını taleyin ağuşuna atan, ruhani fitnəkarlığına inanan, avam, cahil, passiv qadınlara gülür, onları qəflət yuxusundan oyatmaq istəyir.*

**Açar sözlər:** Əli Nəzmi, qadın azadlığı, Mirzə Cəlil, cəhalət, maarifçilik, muhafizəkar, mollanəsrəddinçi, köləlik.

**Key words:** Ali Nazmi, women emancipation, Mirza Jalil, ignorance, enlightenment, conservative, Molla Nasraddinists, slavery.

**Ключевые слова:** Али Назми, свобода женщин, Мирза Джалил, невежество, просвещение, консерваторы, молланасраддинец, религиозные вопросы, рабство.

XX əsr Azərbaycan realist ədəbiyyatında qadın azadlığı məsələləri dövrün tələblərinə müvafiq daha qabarıq prinsipial bir şəkildə qarşıya qoyulmuş, qadın köləliyi və çadra əleyhinə onlarla qiymətli əsər meydana çıxmışdır. Dövrün qabaqcıl şair və mütəfəkkirləri xüsusi ustalıqla qadınların azadlığı mövzusunda bir sıra əsərlər yazaraq bu məsələni daha qabarıq nəzərə çatdırmışlar.

Əsrlərdən bəri köləlik boyundurugu altında inləyən Azərbaycan qadınlarının vəziyyəti bir sıra klassiklərini dərindən düşündürdüyü kimi, görkəmli mollanəsrəddinçilərin də nəzərindən yayınmamışdır.

Qadın azadlığı, ümumən, XX əsr Azərbaycan ədəbiyyatının baş mövzularındandır. Bu mühüm ictimai problem Mirzə Cəlil, Sabir, Ə.Haqverdiyev, M.Ə.Möcüz, M.S.Ordubadi,

Y.V.Çəmənzəminli kimi realist sənətkarları, H.Cavid və M.Hadi kimi görkəmli romantik şairləri də ciddi məşğul etmişdir. Bunlar arasında mollanəsrəddinçi şair Əli Nəzminin də özünəməxsus yeri vardır. Onun 1915-ci ildə yazdığı "Arvad məsələsi" felyetonundan aydın olur ki, mollanəsrəddinçilər qadın azadlığı uğrunda mübarizəni necə çətin bir şəraitdə aparmışlar:

"...Hanı o günlər ki, qəzetlərdə bir kəlmə arvad məsələsi yazılan kimi dünyalar dəyirdi bir-birinə. Lənət dəyənəyi, təkfir topu, qarğış bombası tökülürdü qəzet və məcmuələrin və hürriyyəti-nisvan tərəfdarlarının üst-başlarına. Hanı o günlər ki, bir hərf qəzların təlimi barəsində yazılanda Bakı qoçuları piştovları götürüb "nöşün-nöşün" deyə-deyə düz sürüb gəlirdilər Tiflisə "Molla Nəsrəddin" idarəsini dağıtmağa. Hanı o günlər ki, hicab məsələsinin üstündə Gəncədə Seyid bağır az qalırdı minbəri vurub sındırsın və altdan yuxarı ağanın ağzının köpüyünə mat mat baxan məscid qoyun-keçilərini qırım-qırım qırsın. Qubadan Hacı Molla Baba tayqulaq yabanı çiyninə qoyub ağzını ayırmış əjdaha kimi gəlirdi Bakı şəhərinəki, qız məktəbini dağıtsın". [5, 248-49 ],

Azərbaycan realistleri qadın hüququ uğrundu mübarizəni belə çətin bir şəraitdə aparırdılar. C.Məmmədquluzadə "müsəlman övrətlərinin göz yaşlını dəryalarla müqayisə etdiyi" Sabir "bədbəxt Tükəzbanları"n halına acıyaraq alovlu şerlər yaratdığı zaman Əli Nəzmi də onların səsinə səs verirdi. O Azərbaycan qadınlarının ağır, işgəncə dolu həyatından təsirli əsərlər yazırdı.

Yenilik tərəfdarı, köhnəliyin düşməni olan Əli Nəzmi maarifpərvər fikirləri təbliğ edərkən qız məktəbləri açmağı irəli sürür, çadra və çoxarvadlılıq əlehinə kəskin satiralarla çıxış edir. Başqa mollanəsrəddinçilər və tənqidi realistçilər kimi Əli Nəzmi də qadın azadlığı məsələsini məhdud şəkildə götürür, hüquq bərabərliyi, cəmiyyətdə bərabər hüquqlu vətəndaş olmaq mənasında başa düşür. O qadını ancaq ailədə azad görmək istəyir, mütəqil, azad sevgi, qarşılıqlı məhəbbət əsasında evlənmək məsələsindən irəli getmir.[ 5, 95-96 ]

Bütün çətinliklərə baxmayaraq, Əli Nəzmi Azərbaycan qadınlarının ağır, işgəncə ilə dolu həyatından təsirli əsərlər yazmışdır. Qadın problemi, ailədə ana tərbiyəsi, bunun cəmiyyətə təsiri məsələsi şairin bu dövr yaradıcılığından bir xətt kimi keçir, müsbət, mütərəqqi planda həll olunur. Şair bir tərəfdən qadına münasibətdə ifrat solçuluq edən köhnəpərəstləri ifşa edirsə, digər tərəfdən də caduya, fala, tasa bel bağlayan, həyatını taleyin ağuşuna atan, ruhani fitnəkarlığına inanan, avam, cahil, passiv qadınlara gülür, onları qəflət yuxusundan oyatmaq istəyir. [5, 249].

Əli Nəzmi qadını insan hesab etməyən ailə despotlarına, coxarvadlılara gülür, arvadı ancaq "alaq çəkmək, qaynana saxlamaq, əppək yapmaq, saqqala rəng yaxmaq, yırtıq-yamaq sağlamaq, duz əzmək, oğlan doğmaq, başmaqları cütləmək, nehrə çaxlamaq" üçün alan köhnəfikirliləri ələ salır. Şair bilir ki, qadın məsələsinə məhz ailədən başlamaq lazımdır.[5,96]

Əli Nəzmi hələ ilk felyeton və şeirlərində maarifi, elmi, mədəniyyəti təbliğ edən əsərlərində qadın problemlərinə də toxunur, özünəməxsus müxtəlif şeir formalarından – ata ilə qızın deyişməsi, qoca kişilərə zorla verilən balaca qızların şikayətləri kimi satirik, yumoristik vasitələrdən, altmış yaşlı qocaların eşqə düşməsi, qarıların hiyləgərliyi kimi ədəbi priyomlardan istifadə edib oz oxucusunun nəzərinə çatdırır.

Qadın azadlığı mövzusunda yazdığı şerlərdə Əli Nəzmi daha sadə yolla gedir, aydın, anlaşıqlı təşbehlərə, rəngarəng formalara müraciət edir, zəngin bədii boyalar işlədir. Bu sahədə onun satirik şair Əli Razi (Dabanıçatdaq xala) ilə yazışmaları daha maraqlıdır. Əli razi arvadların, Əli Nəzmi isə kişilərin dilindən bir silsilə maraqlı əsərlər yazmaqla qadın azadlığı uğrunda ardıcıl mübarizə aparmışlar.[5, 96]

Şairin "Arvadlarımız", "Qızlarımız", "Vəssalam", "Qız və dədəsi", "Yeddi yaşındakı qızıma" və s. satiralarında yeni nəsil ilə köhnə nəsil arasındakı dərin uçurum əks olunur. O, bu satıralarında qızların elmə, məktəbə olan meylini, bu meylə qarşı qüvvətli maneəyə çevrilən

cahilləri, köhnəpərəstləri qarşı-qarşıya qoyur. “Yeddi yaşındakı qızıma” şeirində qızların, qadınların halı, onlara olan vəhşi, heyvani münasibət aydın şəkildə nəzərə çarpır.[ 5, 97]

Əli Nəzminin “Kişilərimiz”, “Dabanıçatdaq xalaya”, “Arvadlarımız”, “Bir qızın Molla Nəsrəddinə ərzi-halı”, “Qız və dədəsi”, “Yeddi yaşındakı qızıma”, “Qocaldım”, “Məsləhət”, “Evlənməz idim” əsərlərində balaca qızların qoca kişilərə zorla ərə verilməsi, çoxarvadlılıq, qadın əsarəti, qadını insan hesab etməmək onun təhsili qayğısına qalmamaq kimi hallar kəskin satira qələmi ilə alt-üst edilir. Şair 1909-cu ildə yazdığı məşhur “A qızlar” şerində “taleləri mənhu, günü qara” azərbaycan qadınlarının vəziyyətini məharətlə ümumiləşdirə bilmişdir: [5, 249]

Heyvan kimi çəkdik sizi bazarə, a qızlar,
Satdıq sizi hər köhnəyə, kaftarə, a qızlar.
İstəkli vətən gülləri! Sizsiz yaz açılmaz,
Siz elmsizin nuri-məarif də saçılmaz,
Gün çıxmasa zülməti-şəbistan qaçırılmaz,
Sizdən umulur çarə bu azarə, a qızlar!
Həm tərbiyə, təlim uşaqlarə, a qızlar![6,125-126]

Onun şerlərində biz zorla pula satılan azyaşlı qızların şıkayətini, ah-naləsini, ürək çarpıntılarını eşidirik. Hüquqsuz, kölə halında olan qızlar şairin əsərlərində dərd və qüssələrini uşaqlara məxsus sadə, yanıqlı, ürəklərə təsir edən bir dillə bildirirlər. Həm də doğma balalarının qanlı göz yaşlarını silməyən, onların halına əsla acımayan nadan atalardan “Molla Nəsrəddin”ə zavallı bir uşaq sadəliyi və səmimiyyəti ilə gileylənirlər: [5, 250].

Mən cocuq oldum, məni aldatdılar,
Beş quruşa bir qocaya satdılar.
Yaxud:
Verdi məni, ay Molla, atam bir dəli dəngə,
Bir boynu yoğun, əqligödək, zorlu nəhəngə! [5, 250]

Ata-analarının özbaşına hərəkətlərinə etiraz edən balaca qızlar ailə, qadın, örtünmək barəsindəki şəriət ehkamları ilə əsla razılaşmayıb, yeniliyə, maarifə, məktəbə doğru can atırlar.

Əsarət zənciri ilə zəncirlənmiş Azərbaycan qızları və qadınlarını belə sual düşündürür:[2, 98]

Zülmət çəkilib, sübhi-səadət olacaqmı?
Xurşidi-müsavat və ədalət doğacaqmı?[2, 98]

Əli Nəzminin qadın azadlığına həsr etdiyi məşhur “Məsləhət” (1908) satirası mövzusunun aktuallığına, ideya və məzmununa, oynaq formasına görə o zaman böyük şöhrət qazanmış, bu şerə “Molla Nəsrəddin”in təsiri ilə çıxan satirik jurnallarda çoxlu nəzirələr çap olunmuşdur. “Məsləhət” satirası Sabirin də qəlbini təlatümə gətirmiş, böyük şair ona cavab yazmalı olmuşdur. “Məsləhət” satirasında Əli Nəzmi çox mühüm bir məsələyə toxunmuş, “Molla Nəsrəddin” səhifələrində dönə-dönə tesvir və tənqid olunan qadın hüququnun tapdanması, çoxarvadlılıq, qoca kişilərin azyaşlı, məsum qızlalra evlənməsi kimi yaramaz hallara qarşı etiraz səsini ucaltmışdır. Eyni mövzuya həsr olunmuş bir çox başqa əsərlərə nisbətən “Məsləhət” şerinin müvəffəqiyyətini və ədəbi-ictimai təsir dairəsinin genişliyini təmin edən başlıca cəhət budur ki, şair qələm yoldaşları tərəfindən işlənmiş bədii təsvir və ifadə üsullarından qaçmış, izlədiyi qayəni qabarıq surətdə əks etdirən çox maraqlı və yığcam bir süjet qurmuş, münasib satirik priyoma əl atmışdır. Altmış yaşı çoxdan keçmiş qoca kişinin nəvəsi yaşında qızla evlənmək kimi çirkin niyyətini şair bu süjet daxilində böyük ustalıqla açıb göstərmiş, ona qarşı oxucuda qəzəb və ikrah hissi oyatmağa nail olmuşdur. Əli Nəzminin qadın hüquqsuzluğuna, çoxarvadlılıq ideyasını təbliğ edən dini etiqad və şəriət ehkamlarıma qarşı çevrilmiş “Məsləhət” şerinə yazılmış cavablar arasında Sabirin eyni adlı satirası xüsusi yer tutur. Xalq şairi bu əsərində “mömin” donuna girərək “ildə bir arvad alan” pullu məşədi

və bacılan öldürücü satira hədəfinə çevirmiş, çoxarvadlılığın, qadına kölə münasibəti bəsləyən, ona cansız əşya, adi oyuncaq kimi baxan dini-feodal əxlaqının ittihamçısı kimi meydana çıxmışdır. Əli Nəzmi Azərbaycan qadınının dərd və ələmini, kölə vəziyyətini dərin bir kədər və ürək yanğısı ilə təsvir etmiş, gündə bir arvad alan əyyaşları, qadın dəllallarını sarsıdıcı kinayə obyektinə çevirmişdir:[2, 250-51]

Molla, sənə eyləyirəm məsləhət,
Söylə görüm evlənim, evlənməyim?
Altmışı sinnim eyləyibdir güzəşt,
Bir qız alım, evlənim, evlənməyim?
On ikicə sinni qızın var tamam,
Öz nəvəm əsmər kimicə, vəssalam;
Yaşlı ola bil ki, yəqin almanam
Bircə büküm! Evlənim, evlənməyim?[2, 251]

Qadın azadlığı məsələsi Azərbaycan maarifçi filosoflarının da həmişə diqqət mərkəzində olmuş, bir növ, ənənə xarakteri almışdır.

Əsas məsələ müsəlman Şərqində qadın köləliyinə qarşı , qadın azadlığı uğrunda mübarizədən ibarətdir. İslam aləmində hökm sürən şəriət qaydalarının qadına hüquqsuz bir varlıq kimi baxmağı təlqin etməsi azad fikirli mütəfəkkirlərimizin etirazlarına səbəb olmuşdur. Onlar istibdad şəraitində qadınlarla kişilərin qeyri-bərabər vəziyyətini böyük sosial ədalətsizlik sayırdılar. Ona görə istibdad quruluşunun haqsızlıqlarını tənqid edəndə qadın hüquqsuzluğunun tənqidi üzərində xüsusi dayanır, qadın ləyaqətinə hörmət, onların ictimai həyatda fəaliyyətə cəlb edilməsi, kişilərlə hüquq bərabərliyinin təmin edilməsi haqqında fikirlər aşılayırdılar.

Qadın azadlığı uğrunda mübarizə aparan mütərəqqi fikirli insanlar arasında Əli Nəzminin qələm dostu Cəlil Məmmədquluzadənin də əvəzsiz xidmətləri olmuşdur.

C.Məmmədquluzadə qadın köləliyini cahilliklə şərtləndirir, "Hicab" ayəsi tərəfdarlarının qadına üzü açıq gəzməyi qadağan etdiklərini cahillik, nadanlıq sayır və quranda bu barədə heç bir əmrin olmadığını söyləyir: "Bu ayələrin heç birində bir xırda da əmr olunmur ki, arvadlar üzlərini qapasınlar...Burada da biz ayənin ruhunu, arvadların övrəteynini gizlətməklə üzlərini gizlətməyi bərabər tuturuq ki, bundan da daha aşkar cəhalət ola bilməz.[ 3, 178-179]

Qadın azadlığını milli tərəqqinin əlamətlərindən biri hesab edən C.Məmmədquluzadə istəyirdi ki, "Azərbaycan qadınlarının mədəni səviyyəsi və hüquqları Avropa qadınlarından aşağı olmasın Avropa qadınlarının səviyyəsinə çatmaq üçün Şərq qadınları oxumalı, çalışmalı, vuruşmalı və cəmiyyətlər təşkil etməlidirlər, yoxsa yer üzündə heç bir islam milləti mədəniyyət meydanında irəli gedə bilməyəcəkdir" [ 3, 590]

Qadın azadlığı Cəlil Məmmədquluzadə üçün həmişə əhəmiyyətli problem olmuşdur: Yazıçı 1924-cü ildə "Şərq qadını" jurnalının ildönümü münasibətilə yazdığı "Köhnə dərdim" adlı məqaləsində demişdi: " Bütün ömrümdə vurduğum qələmin çox hissəsi Şərq qadını məsələsi üstündə vurulub. Onun üçün də Şərq qadınlarının dərdini mən hamıdan artıq anlaya bilirəm. Nədir onların dərdi? Şərq qadınını azad etmək, nədən? Şəriətin kəməndindən, müsəlmanlığın zəncirindən, hərəmxanaların zindanından, qara çarşabın zülmündən". [4, 25]

Cəmiyyətin qüvvətli inkişafı üçün maarifçi-realist yazıçı və dramaturqlar elm və təhsillə yanaşı ailə saflığına, qarşılıqlı sevgiyə əsaslanan izdivaclara, qadın azadlığına üstünlük verirdilər. Onların haqlı qənaətlərinə görə, bu cür mənəvi-əxlaqi əsaslar üzərində qurulan ailələrin sayı nə qədər çox olsa, tərbiyəli övlad yetişdirmək imkanı artar. Ona görə onlar ailə-məişət məsələlərinə həsr olunan əsərlərin yazılması məsələsinə də xüsusi əhəmiyyət verirdilər. Təsadüfi deyil ki, Professor Alxan Bayramoğlu bu məsələdən, yəni ailə məişət mövzulu əsərlərin yazılmasından danışarkən göstərir ki, ...Bu xırda məişət mövzuları gələcək

sağlam cəmiyyətvə həm əqli, həm də ruh yüksəkliyi baxımından kamil, işıqlı amala malik millət formalaşdırılmasına xidmət edirdi. Çünki əgər ailə həyatı təsadüflər və şəxsi maddi maraqlar üzərində deyil, qarşılıqlı ülfət və sevgi əsasında qurulsa, ərlə arvad biri digərinə adi əşya, evin bir predmeti kimi baxmazsa, nəticədə bir-birinə xəyanət etməz, yaxud evin kişisi çoxarvadlıq həvəsinə düşməz. Belə ailə də, bu cür ailələrdən təşkil olunmuş cəmiyyət və dövlət də möhkəm və sağlam olar. [1, 362-363]

Bu məqsəd və məramla fəaliyyət meydanına çıxan maarifçi-realistlər qadın azadlığı, cəmiyyətdə qadınların yeri və rolu məsələlərinə, cavan qızların varlı və qoca kişilər tərəfindən özlərinə arvad edilməsinə və s. qarşı çıxır, həmin mövzularda publisistik və səhnə əsərləri yazırdılar. Əsgər ağa Adıgözəlovun “Qocalıqda yorğalıq”, Nəcəfbəy Vəzirovun “Yağışdan çıxdıq, yağmura düşdük”, S.S.Axundovun “Hacı Qənbər” əsəri və digərləri deyilənlərə misaldır.

İstər Əli Nəzmi istərsə də onun məsləkdaşları olsun bu önəmli mövzuya işıq tutaraq qadının cəmiyyətdə yeri və rolunun vacibliyini dərk etmişlər və bunu dərk etdirmək üçün əllərindən gələni əsirgəməmişlər. Əli Nəzminin qadın azadlığı mövzusunda yazdığı əsərlər ilə ictimai həyatda müsbət, oyadıcı təsir yaratdığı danılmazdır. Dövrünün qabaqcıl görüşlü mütəfəkkirləri ilə ədəbiyyatımızda cəmiyyətin vacib problemlərinə işıq tutan Əli Nəzmi Azərbaycan qadınını gələcəkdə azad, müstəqil, və möhkəm iradə sahibi olması üçün zəmin yaratmışdır.

***Ədəbiyyat***

1.Bayramoğlu A. Milli-mədəni şüurun inkişaf mərkəzi XIX əsr Azərbaycan dramatuqurgiyasında... Respublika elmi konfransının materialları. B., 2011. s. 362-363
2.Hüseynov F. Əli Nəzmi Bakı, Gənclik, 1970, s.98, 202 s.
3.Məmmədquluzadə C. Əsərləri, 2-ci cild, səh.178-179, 196 s.
4.Məmmədquluzadə C. "Köhnə dərdim”, "Şərq qadını" jurnalı, 1924, № 10, səh.25
5.Mir Cəlal, Hüseynov F. XX əsr Azərb. ədəbiyyatı. Bakı, Elm və təhsil, 2018, s.248-49, 560
6.Nəzmi Ə. Seçilmiş əsərləri. Bakı, Şərq-qərb, 2006, 544 s.

## THE THEME OF WOMEN'S FREEDOM IN THE WORKS OF ALI NAZMI

***Faracova Aygun Ali***

***Summary***

In the twentieth century Azerbaijani realist literature, the issues of women's emancipation were put forward in a more principled way in accordance with the requirements of the time and dozens of valuable works against women's slavery and the headscarf appeared. Leading poets and thinkers of the time have written a number of works on women's emancipation with special skill.

Among these thinkers, Ali Nazmi stands in the forefront. He has written influential works on the hard, torturous lives of Azerbaijani women. The problem of women, the upbringing of mothers in the family, the impact of this on society passes through the poet's work of this period as a line, is solved in a positive, progressive way. On the one hand, the poet exposes the old-fashioned people who have an extreme attitude towards women, on the other hand, he laughs at ignorant, passive women who rely on witchcraft, fortune-telling, risking their lives, believing in spiritual provocation, and wants to wake them up.

## ТЕМА ЖЕНСКОЙ СВОБОДЫ В ТВОРЧЕСТВЕ АЛИ НАЗМИ

***Фараджова Айгун Али кызы***

***Резюме***

В реалистической литературе Азербайджана XX века вопросы женской свободы были поставлены более ярко в соответствии с требованиями времени, появились десятки ценных произведений против женского рабства и платка. Ведущие поэты и мыслители того времени с особым мастерством написали ряд работ о женском освобождении и выдвинули эту проблему на первый план.

Среди этих мыслителей Али Назми стоит в первых рядах. Он написал влиятельные произведения о тяжелой, мучительной жизни азербайджанских женщин. Проблема женщин, воспитания матери в семье, влияние этого на общество проходит через творчество поэта этого периода как линия, решается в позитивном, прогрессивном ключе. С одной стороны, поэт разоблачает старомодных женщин, экстремально относящихся к женщинам, с другой - смеется над невежественными, пассивными женщинами, которые полагаются на колдовство, гадание, гадание, рискуя своей жизнью, верит в духовную провокацию и хочет разбудить их ото сна.

***Rəyçi: dos. M.M.Əhmədov***
***Azərbaycan və Dünya ədəbiyyatı kafedrasnın 10 noyabr 2021-ci il tarixli iclasın 03 saylı protokolu.***
***Daxil olma tarixi 17 noyabr 2021-ci il***

**UOT:811.512.161**

## TÜRK YAZILI ABİDƏLƏRİ TÜRK DİLLƏRİNİN XÜSUSİYYƏTLƏRİNİ ÖYRƏNƏN QİYMƏTLİ MƏNBƏ KİMİ

***f.ü.f.d. Həsənova Aidə Ədib qızı***
***Gəncə Dövlət Universiteti***
**eldarmeh1@gmail.com**

**Xülasə*:*** *Qədim türk yazılı abidələrinə türk xalqlarının yaşamış olduqları və hazırda da yaşadıqları geniş arealda rast gəlinir . Bu yazıların günümüzə qədər gəlib çatan ən məhşur örnəkləri VII-VIII yüzilliklərə aiddir. Daşlar üzərində Göytürk (runik) əlifbası ilə yazılmış bu kitabələrin türk xalqlarının tarixinin öyrənilməsində böyük əhəmiyyəti vardır.*

**Açar sözlər**: Göytürk, Orxon-Yenisey abidələri, türk dili, damğa, toponım, etnonim, zoonim, rütbə

**Key words:** Gekturks, Orkho-Yenisei monuments, Turkic language, printing, toponym, etnonym, zoonym, rank

**Ключевые слова:** Гектюрки, орхоно-енисейские памятники, тюркский язык, печать, топоним, этноним, зооним, ранг

Göytürk kitabələrində (Kültigin abidələrində) ilk dəfə olaraq "**türk millәti**" ifadəsi işlənmiş, türkün tarixi öncə bu daşlar üzərində yazılmışdır. (Şəkil 1.) Bu daş yazıları türk ədəbiyyatının ilk əsəri, ulu babasıdır, türk dilinin ilk yazılı qaynağıdır.

**Orxon – Yenisey** abidələri adı ilə adlandırılan bu kitabələr *Göytürk* abidələri kimi məşhurdur. Bu abidələrin yaranması türklərin tarix səhnəsinə çıxması, onların oyanışı və mədəni yüksəlişinin nəticəsidir.

Türk millətinin düşünən beyinlərindən olan Tonyukuk təəssüflə yazırdi: "Türk milləti öldü, qurtardı, yox oldu. Türk millətinin yerində dörd boy qalmadı. Meşədə, çöldə qalmış olanlar toplanıb 700 oldular. İki bölüyü atlı, bir bölüyü piyadə idi. Yeddi yüz nəfəri idarə edən beş nəfərin böyüyü şadi idi. Yardımçı mən oldum. Bilgə Tonyukuku qağanmı edəlim,